**"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının (2011-2015-ci illər)" təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2011-ci il tarixli 1578 nömrəli Sərəncamının icrası ilə əlaqədar Vergilər Nazirliyi tərəfindən 2011-2015-ci illər ərzində həyata keçirilmiş tədbirlər barədə məlumat**

| № | Görüləcək işlər | İcraya məsul strukturlar | İcra müddəti |
|---|---|---|---|
| **Makroiqtisadi sabitlik və iqtisadi artım** | | | |
| 1. **(1.1.2.) Vergilərin yığım səviyyəsinin artırılması** | | | |
| **1.1.** (1.1.2.1.) | Vergi mədəniyyətinin artırılmasına yönəldilmiş maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Vergi mədəniyyətinin artırılması məqsədilə 2011-2015-ci illər ərzində vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən 14 adda kiçik həcmli bukletlər, nağdsız ödənişlərin üstünlüklərini, ödəniş kartları və POS-terminallardan istifadə qaydalarını özündə əks etdirən bukletlər, Vergilər Nazirliyinin 2013-2014-cü illər fəaliyyətini əks etdirən icmal jurnallar, "Vergi uşaqların gözü ilə" adlı jurnallar, Vergi qanunvericiliyinin pozulmasına görə tətbiq edilən məsuliyyət tədbirləri haqqında "Yaddaş" və Vergilər Nazirliyinin rəsmi internet səhifəsi barədə kitabçalar hazırlanaraq 656600 sayda nəşr edilməklə vergi ödəyicilərinə çatdırılması həyata keçirilmişdir.<br>İTE Group şirkəti tərəfindən respublikada təşkil olunan müxtəlif yönümlü 20 sərgidə vergi təbliğatı işi təşkil edilmişdir.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yeni "Vergi və dövlət rüsumlarını hara köçürməli?" adlı bölmə vergi ödəyicilərinin istifadəsinə verilərək, dövlət xəzinədarlıq orqanlarında vergi və rüsumlar köçürüləcək bank hesablarının rekvizitlərinin VÖEN əsasında axtarış imkanı yaradılmışdır.<br>Bununla yanaşı internet səhifəsində "Vergi borcları üzrə kömək" adlı bölmə yaradılmış və burada vergi ödənişləri üzrə güzəştlər, vergilərin ödəmə müddətinin uzadılması, iflas olma haqqında iddia verilməsi və digər bu kimi məsələlərin həlli mexanizmləri izahlı şəkildə yerləşdirilmişdir.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsində "Vergilər nazirinin bölgələrdə qəbulu" bölməsi yaradılmışdır. Bölmədə interaktiv xəritə vasitəsi ilə hər bir rayonda keçirilən görüşün tarixi, yeri, müraciətlərin mövzuları və nəticələri barədə məlumatlar əks etdirilmişdir. Həmin məlumatlar səhifədə | 2011-2015 |

| № | Görüləcək işlər | İcraya məsul strukturlar | İcra müddəti |
|---|---|---|---|
| | | cədvəl formasında da yerləşdirilmişdir.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi ilə əlaqədar vergi orqanları tərəfindən aparılan yoxlamaların reqlamentini, onların hüquqi əsasları barədə dolğun məlumatı əks etdirən "Vergi yoxlamaları: əsaslar və prosedurlar" bölməsi yaradılmış və vergi ödəyiciləri üçün səyyar vergi yoxlaması və operativ nəzarət tədbirləri barədə daha aktual olan sualların normativ hüquqi aktların müddəaları ilə izah olunması məqsədilə Audit sahəsi üzrə 6, Operativ nəzarət sahəsi üzrə isə 7 istiqamətdə müvafiq "Bildiriş-Məlumat" formaları hazırlanaraq həmin bölmədə yerləşdirilmişdir.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxil olan istifadəçilərin axtardıqları məlumatları tez və rahat tapması üçün 2014-cü ildən etibarən "Onlayn bələdçi" xidməti istifadəyə verilmişdir. Bu xidmətin vasitəsilə internet səhifəsində məlumatların tapılmasında çətinlik çəkən istifadəçilərə canlı rejimdə müvafiq köməkliyin təqdim edilməsi həyata keçirilir.<br>Vergi mədəniyyətinin artırılması və vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumat əldəetmə imkanlarının genişləndirilməsi məqsədilə 2011-ci ilin iyul ayının sonunda Facebook sosial şəbəkəsində Vergilər Nazirliyinin rəsmi səhifəsi yaradılmışdır. 2011-2015-ci illərdə Facebook və Twitter sosial şəbəkələrindəki Vergilər Nazirliyinin rəsmi səhifələrində, Youtube video hostinq serverində və video.az saytında vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması mütəmadi olaraq həyata keçirilmişdir.<br>Belə ki, 2012-ci ildən Nazirliyin Facebook sosial şəbəkəsindəki səhifəsində yeni "FACE-Vizit" layihəsinə start verilmişdir. Cəmiyyətin tanınmış simaları (siyasətçilər, idmançılar, yazıçılar, incəsənət xadimləri və s.) ilə video-müsahibələr hazırlanaraq onların nazirliyin Facebook sosial şəbəkəsindəki səhifəsində yerləşdirilməsi həyata keçirilir.<br>2013-cü ildən vergi ödəyicilərinin vergi qanunvericiliyi və inzibatçılığı barədə məlumatlandırılması məqsədilə "Onlayn müfəttiş" adlı layihəyə | |

| № | Görüləcək işlər | İcraya məsul strukturlar | İcra müddəti |
|---|---|---|---|
| | | başlanılmışdır.<br>2015-ci ildə nazirliyin Facebook sosial şəbəkəsindəki səhifəsində istifadəçi marağını artırmaq məqsədilə “Məhşurlardan ismarıc var!” adlı yeni layihə təqdim edilmişdir. Bu layihə vasitəsilə seçilmiş məhşurların, ictimai siyasi xadimlərin, idmançıların və cəmiyyətdə tanınan simaların dilindən vergilərin təbliğinə aid şüarlar səsləndirilir. Hesabat dövründə 5 məhşurun iştirakı ilə video çarxlar yerləşdirilmişdir.<br>Bundan əlavə “195 Çağrı Mərkəzi”nin yaradılması və fəaliyyətə başlaması barədə, gəlir vergisi bəyannaməsinin, muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinin (illik və rüblük), ödəmə mənbəyində tutulan vergi bəyannaməsinin, əlavə dəyər vergisi bəyannaməsinin, sadələşdirilmiş vergi bəyannaməsinin doldurulma qaydaları, vergi hesab-fakturaların əvəzləşdirilməsi, vergilərin onlayn ödənilməsi qaydaları üzrə video çarxlar, “Vergilər uşaqların gözü ilə” ənənəvi rəsm və inşa müsabiqəsi keçirilmişdir” adlı süjetlər Facebook sosial şəbəkəsində yerləşdirilmişdir.<br>Azad Azərbaycan teleradio yayım kompaniyası ilə Vergilər Nazirliyinin birgə layihəsi olan yeni həftəlik telelayihə “İqtisadi Zona” verilişi yayıma başlayıb. Veriliş Azərbaycanda və dünyada baş verən ən vacib iqtisadi yeniliklərin geniş tamaşaçı kütləsinə çatdırmaqla yanaşı, xüsusi olaraq vergilərin təbliğinə xidmət edərək, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırmasını dəstəkləyən, vergi ödəyiciləri ilə münasibətləri daha da asanlaşdıran, bütünlükdə ölkənin iqtisadi mənzərəsini əks etdirən məlumatlandırıcı və maarifləndirici xarakter daşıyır. Hesabat dövründə verilişin 33 buraxılışı yayımlanıb.<br>Vergilər Nazirliyinin rəsmi internet səhifəsindən, o cümlədən səhifədəki məlumat və elektron xidmətlərdən istifadənin asanlaşdırılması və əhalinin bütün təbəqəsi üçün əlçatan olması məqsədilə İOS və Android sistemli smartfon tipli avadanlıqlar üçün müvafiq parametrləri özündə əks etdirən xüsusi proqram hazırlanmış və noyabr ayından "AppStore" və “PlayMarket" servislərində yerləşdirilmişdir. Həmin proqram 8 bölmədən (haqqında, | |

| № | Görüləcək işlər | İcraya məsul strukturlar | İcra müddəti |
|---|---|---|---|
| | | qanunvericilik, bəyannamə, e-xidmətlər, bir pəncərə, müraciətlər, yeniliklər və media) ibarətdir.<br>Görülmüş işlərin nəticəsi olaraq Multimedia Mərkəzi tərəfindən ictimai informasiya subyektlərinin (dövlət orqanları və bələdiyyələrin) rəsmi internet resurslarının monitorinqinin nəticələrinə görə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi ardıcıl olaraq 7 il birinci yerə layiq görülmüşdür.<br>Bakı şəhəri və regionlarda reklam şirkətləri ilə razılaşmaya müvafiq olaraq yol kənarlarında nağdsız ödənişlərin stimullaşdırılmasını, rəsmi internet səhifəsini təbliğ edən və “195 Daha zəngin məlumat!” və “Əmək müqaviləsi Sizi qoruyur” mətnlərində sosial reklamlar yerləşdirilmişdir.<br>Bununla yanaşı 2011-2015-ci illərdə respublikanın regionlarında yerli vergi orqanları tərəfindən “Vergilər uşaqların gözü ilə” rəsm və inşa müsabiqələri keçirilmiş, qaliblər mükafatlandırılmışlar. Həmçinin Vergilər Nazirliyinin təşəbbüsü və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının dəstəyi ilə ənənəvi olaraq 1 iyun Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə “Vergilər uşaqların gözü ilə” rəsm və inşa müsabiqələri keçirilmişdir.<br>Vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işini genişləndirmək, “vergi” məfhumunu ölkəmizin bütün ərazisinə, xüsusilə ərazi vergilər idarələrinin, ərazi vergilər departamentlərinin və Vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayon mərkəzlərinin əhatəsindən kənarda olan kənd və qəsəbələrə, hər bir ailəyə çatdırmaq, bununla da vətəndaşlarda vergi mədəniyyətini formalaşdırmaq, o cümlədən, bu sahəyə ictimaiyyətin geniş təbəqələrini cəlb etmək məqsədilə “Vergi Dostları” layihəsinin tətbiqinə başlanılmış və vergilər nazirinin 24.01.2012-ci ili tarixli əmri ilə “Vergi Dostları” şəbəkəsinin fəaliyyət qaydaları, sertifikat və döş nişanının forması, öhdəlik vərəqəsinin nümunəsi təsdiq edilmişdir. “Vergi dostları” layihəsinin tətbiqi ilə əlaqədar 2, 11, 12 saylı ərazi vergilər departamentləri, 3, 4, 5, 6, 8, 9, 10, 13, 14 saylı ərazi vergilər idarələrinin əhatə dairəsinə daxil olan rayonların, eləcə də Füzuli və Ağdam rayonlarının ümumtəhsil məktəblərindən müəllimlər seçilərək onlara treninqlər keçirilmiş, | |

| № | Görüləcək işlər | İcraya məsul strukturlar | İcra müddəti |
|---|---|---|---|
| | | "Vergi dostu" olması barədə sertifikat və kompüterlər təqdim olunmuşdur. Ümumilikdə respublika üzrə seçilmiş "Vergi dostları"nın sayı 1541 nəfər olmuşdur.<br>"Vergi dostu" seçilmiş müəllimlərin fəaliyyətinin əlaqələndirilməsi, eləcə də gördükləri işlər barədə məlumat vermək imkanlarının genişləndirilməsi məqsədilə Facebook sosial şəbəkəsində "Vergi Dostları" qrupu yaradılmışdır.<br>Vergi mədəniyyətinin artırılması, vergi ödəyiciləri tərəfindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin, habelə vergi öhdəliklərinin vaxtında və düzgün yerinə yetirilməsinin təmin edilməsi məqsədilə keçirilmiş digər tədbirlərlə yanaşı vergi ödəyicilərinə ünvanlı xidmətin göstərilməsinə üstünlük verilərək 80596 vergi ödəyicisinə ünvanlı (səyyar) məlumatlandırma xidməti göstərilmişdir.<br>2011-ci ilin əvvəlindən etibarən telefon məlumat xidməti vasitəsilə vergi ödəyicilərinin ünvanlı və kütləvi şəkildə məlumatlandırılması üçün səsli mesaj xidməti ilə yanaşı vergi ödəyicilərinin mobil telefon nömrələrinə SMS-lərin də göndərilməsinə başlanılmışdır.<br>Vergi mədəniyyətinin artırılması ilə əlaqədar hesabat dövründə Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinin mesaj xidməti vasitəsilə 4625061 vergi ödəyicilərinin məlumatlandırılması təmin edilmişdir. | |
| **2. Aylıq gəlirləri yaşayış minimumundan çox olmayan fiziki şəxslərin gəlir vergisindən azad edilməsi** | | | |
| **2.** (1.1.4.) | Aylıq gəlirləri yaşayış minimumundan çox olmayan fiziki şəxslərin gəlir vergisindən azad edilməsi | 2016-cı ilin yanvarın 1-dən qüvvəyə minən "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2015-ci il tarixli 1384-IVQD nömrəli Qanununa əsasən Vergi Məcəlləsinin 102.1.6-cı maddəsində "250" rəqəmi "2500" rəqəmi ilə, "3000" rəqəmi "30000" rəqəmi ilə əvəz edilmişdir. Bununla fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli (136 manat), illik gəliri 30000 manatadək olduqda əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli (1632 manat) məbləğində olan hissəsi fiziki | 2011-2015 |

| № | Görüləcək işlər | İcraya məsul strukturlar | İcra müddəti |
|---|---|---|---|
| | | şəxslərin gəlir vergisindən azad edilir. Sözügedən dəyişiklik ölkədə həyata keçirilən sosial siyasətə uyğun olaraq əhalinin gəlirlərini artırmaqla onların maddi rifahının yaxşılaşmasına müsbət təsir göstərəcəkdir. | |
| | | **4. (2.1.3.) Əmək münasibətlərinin tənzimlənməsi** | |
| **4.1.** (2.1.3.1) | Qeyri-formal əmək münasibətlərinin leqallaşdırılmasının gücləndirilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi | 2011-2015-ci illər ərzində qeyri-formal əmək münasibətlərinin leqallaşdırılması sahəsində operativ nəzarət strukturlarının fəaliyyəti daha da gücləndirilmiş, nəzarət işlərinin həyata keçirilməsi intensivləşdirilmiş və səmərəliliyi yüksəldilmişdir.<br>2011-2015-ci illər ərzində həyata keçirilmiş vergi nəzarəti tədbirləri zamanı 72303 vergi ödəyicisində mövcud iş yerlərinin rəsmiləşdirilməsi ilə bağlı operativ vergi nəzarəti tədbiri həyata keçirilmiş, 22308 vergi ödəyicisində qanun pozuntusu aşkar edilmişdir. Nəzarət işləri nəticəsində işəgötürənlər tərəfindən 41210 nəfər fiziki şəxsin əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edildiyi aşkar olunmuşdur. Qanun pozuntularına görə aidiyyəti şəxslər barəsində vergi qanunvericiliyinə müvafiq olaraq 40,7 milyon manat maliyyə sanksiyası tətbiq edilmişdir.<br>Həmin dövrdə operativ vergi nəzarəti tədbirləri ilə 197270 (vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə və "Fərqlənmə nişanı" almadan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşıma fəaliyyəti ilə məşğul olan şəxslərin aşkar edilməsi məsələləri istisna olmaqla) ticarət, iaşə, xidmət və digər profilli obyektlər əhatə edilmiş və bunlardan 173335-də vergi qanunvericiliyinin pozulması halları aşkar edilmişdir. Nəzarətin nəticələri barədə 297806 akt və protokol tərtib edilərək 69,3 milyon manat inzibati cərimə və maliyyə sanksiyaları tətbiq edilmişdir. | 2011-2015 |
| | | **5. (4.2.1.) Bələdiyyələrin davamlı inkişafının təmin edilməsi** | |
| **5.1.** (4.2.1.2.) | Yerli vergi və ödənişlərin toplanması sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinin müvafiq idarələri və bələdiyyələr arasında əməkdaşlığın genişləndirilməsi | 2011-2015-ci illər ərzində yerli vergilərin hesablanması və ödənilməsi qaydası və müddətləri, habelə digər aktual mövzularda bələdiyyələrin vergi xidməti orqanlarının əməkdaşları ilə 2842 görüş keçirilmişdir.<br>Yerli vergi ödəyiciləri olan fiziki şəxslərin uçota alınması, yerli vergilərin hesablanması və ödənilməsi ilə bağlı bələdiyyələrin vergi xidməti orqanları ilə | 2011-2015 |

| № | Görüləcək işlər | İcraya məsul strukturlar | İcra müddəti |
|---|---|---|---|
| | | ərazi vergi orqanları tərəfindən hər ay üçün seminar məşğələləri keçirilmişdir.<br>Vergilər Nazirliyinin sifarişi ilə icraçı şirkəti tərəfindən “Bələdiyyə Vergi İnformasiya Sistemi” (BVİS) proqram təminatı hazırlanmış 2014-cü ilin aprel ayında təhvil verilmişdir. 2014-cü ilin may ayından başlayaraq 8 bələdiyyədə həmin proqram təminatının tətbiqi üzrə Pilot layihə həyata keçirilməyə başlanmışdır. Hazırda respublikamızın 17 bələdiyyəsinə BVİS proqramı təminatı quraşdırılmış və ötən müddət ərzində qeydiyyata alınmış 46 mindən çox yerli (bələdiyyə) vergi ödəyicilərinin 57 mindən çox əmlakı və torpağının qeydiyyatı BVİS proqramında aparılmışdır.<br>Həmçinin bələdiyyələrə elektron xidmətlərin göstərilməsinin təşkili məqsədilə İnternet Vergi İdarəsi yaradılmışdır.<br>Vergilər nazirinin 13 may 2015-ci il tarixli əmrinə əsasən “Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması” və “Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı” Metodiki Vəsaitlər yeni redaksiyada hazırlanaraq təsdiq edilmişdir. Bu Metodiki Vəsaitlər “Bələdiyyələrin vergi sistemi” adlı kitab şəklində çap etdirilmişdir. | |